**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**Səməd Rəhbəri Bənaiyan Abbasqulu oğlu**

# Azərbaycan Respublikası və İran İslam Respublikasının qüvvədə olan cinayət qanunvericiliyinə görə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti

İxtisas: 5611.01 – Cinayət hüququ və kriminologiya;
cəza-icra hüququ

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsini
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin «Cinayət hüququ və kriminologiya» kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər**: | **F.Y. Səməndərov**<br>Azərbaycan Respublikasının əməkdar hüquqşunası, hüquq üzrə elmlər doktoru, professor |
| **Rəsmi opponentlər**: | **H.S. Qurbanov**<br>hüquq üzrə elmlər doktoru, professor |
| | **S.O. Əliyev**<br>hüquq üzrə fəlsəfə doktoru |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyası** |

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi «  » mart 2016-cı il tarixdə saat __:__-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdində təşkil edilmiş FD.01.103 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Bakı ş., Hüseyn Cavid pr. 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, 9-cu mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» __________ 2016-cı ildə göndərilmişdir.

**FD.01.103 Dissertasiya**
**Şurasının elmi katibi,**
**h.ü.f.d., dosent** **X.Ə.Bayramzadə**

# I. İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin 2-ci bəndinə əsasən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. 18 mart 2009-cu ildə keçirilmiş referendumla 71-ci maddəyə edilmiş əlavəyə əsasən isə hər kəsin hüquq və azadlıqları Konstitusiyada və qanunlarda müəyyən edilmiş əsaslarla, habelə digərlərinin hüquq və azadlıqları ilə məhdudlaşır. Hər kəs qanunla qadağan olunmayan hərəkətləri edə bilər və heç kəs qanunla nəzərdə tutulmayan hərəkətləri etməyə məcbur edilə bilməz.

Ötən əsrin 70-ci illlərindən başlayaraq dünya miqyasında cinayətkarlığın vəziyyətində və dinamikasında ciddi dəyişikliklər baş vermişdir. Sülhün və bəşəriyyətin təhlükəsizliyinə qəsd edən cinayətlər, mütəşəkkil cinayətkarlıq, terrorizm, narkotik maddələrin qanunsuz dövrüyyəsi, insan alveri və s. cinayətlər dünyada cinayətkarlığın mənzərəsini müəyyən edən əsas göstəricilərə çevrilmişdir. Bu cinayətlərin törədilməsində yetkinlik yaşına çatmayanların payının getdikcə artması ciddi narahatlıq yaradır.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi zamanı əhalinin sağlamlığı ilə yanaşı, həmçinin bütövlüklə cəmiyyətin mənafeyinə zərər vurulur. Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinə əsasən insanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər. Sağlamdığın qorunması siyasi, iqtisadi, hüquqi, sosial, mədəni, elmi, tibbi, sanitariya-epidemiologiya xarakterli tədbirlərin məcmuyu ilə həyata keçirilir.

İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsində, sağlamlığının qorunmasında mühüm yerlərdən birini cinayət-hüquqi tədbirlər tutur. Şəxsiyyətin sağlamlığının cinayət-hüquqi mühafizəsi CM-in Xüsusi hissəsinin bir sıra normaları (məsələn, 18-ci fəsil) vasitəsi ilə qorunur. Lakin şəxsiyyət əleyhinə cinayətlərdən fərqli olaraq narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərdə yalnız ayrıca şəxsin sağlamlığına deyil, çox sayda insanın, müəyyən ərazidə yaşayan əhalinin və ya onun bir hissəsinin həyat və sağlamlığına qəsd edilir. Başqa sözlə, bu növ cinayətlərdən ayrı-ayrı şəxslər ilə yanaşı, həmçinin bu cinayətlərin törədildiyi yerin əhalisi zərər çəkir və ya sağlamlıq ilə yanaşı digər münasibətlər də ziyan çəkə bilir. Məsələn, narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları talama və ya hədə-qorxu ilə ilə tələb etmə zamanı (CM-in 235-ci maddəsi) əhalinin

sağlamlığı ilə yanaşı mülkiyyət münasibətlərinə, narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma (maddə 239) zamanı isə müvafiq müəssisələrin normal fəaliyyətinə zərər vurulur.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin ictimai təhlükəliliyi hər şeydən əvvəl cinayətin predmetinin xüsusi xarakteri ilə müəyyən olunur. Bu maddələrin nəzarətsiz istehlakı insan orqanizminə kəskin mənfi təsir edir, şəxsiyyətin deqradasiyasına, fiziki və mənəvi cəhətdən tükənməsinə səbəb olur. Əhali tərəfindən bu maddələrin kütləvi istehlakı və ya onların qanunsuz dövriyyəsi «narkomaniya», «narkotizm», «toksikomaniya», «narkotik vasitələrin və psixotrop maddələrin qeyri-tibbi məqsədlər ilə istehlakı», «narkobiznes» «transmilli narkomafiya» kimi anlayışların yaranmasına səbəb olmuşdur.

Narkotik cinayətkarlıqla mübarizənin mühüm əhəmiyyət kəsb etməsi ilk növbədə cinayətkarlığın bu növünün bütün dünyanı əhatə etməsi ilə şərtlənir. Bu səbəbdən narkotik cinayətkarlıq beynəlxalq xarakterli cinayətkarlıq kimi qiymətləndirilir. Qloballaşma və inteqrasiya prosesləri beynəlxalq problemləri dövlət və xalqların birgə səyi ilə həll etməyə şərait yaratsa da, bu prosesə maneçilik törədən çoxlu amillər də mövcuddur. Belə ki, Azərbaycan Respublikası iqtisadi, sosial və mədəni həyatda mühüm uğurlar əldə etməsinə baxmayaraq, coğrafi mövqeyi və geosiyasi vəziyyəti etibarilə ciddi problemlərlə, xüsusən, narkotik vasitələr qaçaqmalçılığında ərazisindən tranzit məqsədlərlə istifadə edilməsinin aradan qaldırılması problemi ilə üzləşmişdir. Bu isə milli təhlükəsizlik üçün təhdid yaradan problemlərdən sayılır.

Prof. B.S.Zahidov düzgün olaraq göstərmişdir ki, tarixən Azərbaycanda narkomaniya və narkotik cinayətkarlıq problem səviyyəsində olmamışdır. Bu, bir tərəfdən dini etiqada görə sərxoşluğa səbəb olub araya ədavət və kin salan hər şeyin Qurani kərimdə «şeytan əməllərindən olan murdar bir şey» hesab edilməsi (63, s. 100), digər tərəfdən yabançı və zərərli meyl və vərdişlərə qarşı milli müqavimət ruhunun güclü olması ilə bağlı olmuşdur. Amma son illərdə həm Azərbaycan Respublikasında, həm də İran İslam Respublikasında narkotik maddələrə münasibət göstərir ki, bu amillər narkotik maddələrin yayılmasının qarşısını almaqda müəyyən rol oynasa da, həlledici deyildir. Bəzi müəlliflərə görə başlıca amil rejimin xüsusiyyətlərindən doğur. Hesab edilir ki, sovetlər zamanı narkotik probleminin öhdəsindən xarici əlaqələrin məhdudlaşdırılmasından tutmuş ideoloji prinsipə qədər – mövcud dövlət

sistemi gəlmişdir. Narkotiklərə aludəçilik və narkotik cinayətkarlıq halları heç vaxt kütləvi xarakter daşımamış, ayrı-ayrı neqativ hallar isə qapalı cəmiyyət mühitində gizlin saxlanmışdır. Sovet rejimi dağıldıqdan sonra isə vəziyyət dəyişmişdir. Digər mövqeyə görə isə keçmiş SSRİ-də gizli iqtisadiyatın ölçüsü 70 - 90 milyard rubl təşkil edirdi ki, bunun da əsas komponentlərindən biri narkobiznes sayılmışdır (29, s. 4).

Hazırda keçmiş SSRİ məkanında narkosituasiyanın kəskin surətdə ağırlaşdığı, bəzi ölkələrdə narkotiklərdən qeyri-tibbi məqsədlərlə istifadənin və narkotik cinayətkarlığın milli təhlükəsizlik üçün real təhlükə yaratdığı qeyd olunur. Bu, müstəqilliyin ilk illərində cinayətkarlığın artması, bazar iqtisadiyyatına keçid dövründə yaranmış mürəkkəb maliyyə-iqtisadi vəziyyət, sosial-iqtisadi həyat şəraitinin pisləşməsi, mənəvi-əxlaqi dəyərlərin ənənəvi sisteminin dağılması, MDB ölkələrinin qarşılıqlı hərəkət və fəallığının aşağı düşməsi, sərhədlərin şəffaflığı və s. çoxsaylı səbəblərlə izah edilir.

Azərbaycan Respublikasında və İran İslam Respublikasında narkotik maddələrlə bağlı problemin xeyli artması eyni zamanda ölkələrin coğrafi mövqeyi ilə bağlıdır. Belə ki, hər iki ölkə ərazisi narkobiznes sahəsində qaçaqmalçılıq üçün əlverişli keçid məntəqələrindən birinə çevrilmişdir. Hər iki respublika ərazisində narkotik vasitələrin və psixotrop maddələrin istehsalı qanunla qadağan edilmişdir. Ayrı-ayrı həyətlərdə, təsərrüfat sahələrində gizli şəkildə narkotik xassəli bitkilərin əkilib-becərilməsi hallarına tez-tez rast gəlinsə də, əksər narkotiklər ölkəyə qaçaqmalçılıq yolu ilə xaricdən gətirilir. «Biznes fəaliyyəti» adı altında külli miqdarda narkotik vasitələrin və ya psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə Yaxın Şərq ölkələrindən (məsələn, Əfqanıstan) İran İslam Respublikasının, oradan isə Azərbaycan Respublikası ərazisinə keçirilməsi və buradan tranzit olaraq Rusiya və sonra Avropa bazarlarına daşınması artıq acı faktlar kimi qəbul edilir. Beynəlxalq təşkilatların Əfqanıstanda istehsal olunan narkotiklərin Avropa ölkələrinə daşınması üzrə müəyyənləşdirdiyi 113 leqal marşrutlardan 37-nin Azərbaycan ərazisindən keçməsi ehtimal olunur. Digər tərəfdən, erməni təcavüzü nəticəsində Azərbaycan dövlətinin 17 min kvadrat kilometrlik ərazisi işğal edilmiş, 132 kilometrlik sərhəd xətt nəzarətdən kənarda qalmışdır. Artıq neçə müddətdir ki, həmin ərazilərdən narkotik vasitələr və psixotrop maddələrin istehsalı, narkotranzit məqsədlər üçün istifadə edilir ki, bu da ölkədə narkotik vəziyyəti daha da ağırlaşdırır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» 1988-ci il Konvensiyasına, 1998-ci ildə isə «Narkotik

vasitələr haqqında» 1961-ci il Vahid Konvensiyasına və «Psixotrop maddələr haqqında» 1971-ci il Konvensiyasına qoşulmuş, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə üzərinə mühüm öhdəliklər götürmüşdür. Həmin konvensiyalar ölkə ərazisində dövlətin narkotik vasitələr və ya psixotrop maddələrlə bağlı hüquq pozuntusu törətmiş təkcə öz vətəndaşlarını deyil, həm də əcnəbi vətəndaşları təqib etmək hüququnu tanıyır, narkotik vasitələrin və psixotrop maddələrin hazırlanması, istehsalı, saxlanması, əldə edilməsi, bölüşdürülməsi, yayılması və s. qaydalarının qəsdən pozulması halları üçün cinayət məsuliyyətinin nəzərdə tutulmasını və müvafiq cinayət əməli törədən şəxslərin, habelə belə hüquq pozuntularında bilavasitə iştirak etmiş şəxslərin cəzalandırılmasını tələb edir.

Azərbaycan dövləti narkotizmlə mübarizə sahəsində üzərinə götürdüyü bu və ya digər öhdəlikləri, habelə narkotik cinayətkarlıqla mübarizə tədbirlərini beynəlxalq orqan və təşkilatlarla, o cümlədən, BMT İqtisadi və Sosial Şurasının Narkotik Vasitələr üzrə Komissiyası, BMT-nin Narkotiklərə Nəzarət üzrə Beynəlxalq Proqramı, BMT-nin Yaxın və Orta Şərqdə Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Nəzarət üzrə Yardımçı Komissiyası ilə sıx əməkdaşlıq çərçivəsində həyata keçirir. Azərbaycan Respublikası Prezidentinin «Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında» 26 avqust 1996-cı il tarixli Fərmanı, həmin Fərmana və BMT Baş Məclisinin 1990-cı ildə keçirilmiş xüsusi 17-ci sessiyasının qərarlarına uyğun olaraq ardıcıl surətdə qəbul edilmiş 1995 - 2000 və 2000 - 2006-cı illərdə «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə» Azərbaycan Respublikasının Ümummilli Proqramları, Azərbaycan Respublikası Milli Məclisinin 18 iyun 1999-cu il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» və 28 iyun 2005-ci il tarixli «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» qanunları və digər normativ sənədlərlə ölkədə narkomaniyanın yayılması və narkotiklərin qeyri-qanuni dövriyyəsi ilə ümummilli mübarizənin əsas istiqamətləri müəyyən edilmişdir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə milli qanunvericiliyin mühüm nümunələrindən biri Azərbaycan Respublikasının «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» 28 iyun 2005-ci il tarixli qanunudur. Azərbaycan Respublikasında narkotizmlə mübarizənin məzmunu həmin sənəddə

müəyyən edilmişdir. Azərbaycan Respublikasının 1999-cu il 30 dekabr tarixli qanunu ilə təsdiq edilmiş və 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş Cinayət Məcəlləsində «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər» adlı müstəqil iyirmi altıncı fəsil yaradılmışdır.

1991-ci ildə Azərbaycan müstəqillik qazandıqdan sonra qonşuluq prinsipi əsasında digər dövlətlərlə olduğu kimi İİR-sı ilə də geniş əlaqələr qurmuşdur. Digər sahələrdə olduğu kimi hüquq sahəsində də ölkələr arasında müştərək proqramlar həyata keçirilir, cinayətkarlığın qarşısının alınması üçün tədbirlər həyata keçirilir. Son illərdə Azəbaycan və İran İslam Respublikası Prezidentlərinin, hüquq mühafizə orqanları rəhbərlərinin ölkələrə qarşılıqlı səfərləri çərçivəsində mütəşəkkil cinayətkarlığa qarşı mübarizə, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, cinayət törətmiş şəxslərin ekstradisiyası və s. məsələlər ilə yanaşı narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi ilə birgə mübarizə problemləri də müzakirə olunmuşdur.

Eyni zamanda dünyada gedən qloballaşma prosesi bir sıra uğurlar ilə yanaşı müəyyən fəsadlar da doğurmuşdur ki, onların sırasında narkomaniya ilə bağlı problemlər xüsusi yer tutur. Müasir cəmiyyətlərin inkişaf səviyyəsi, ölkələrin iqtisadi tərəqqisi vətəndaşların şəxsiyyətinə, onların sosial, əxlaqi və mənəvi keyfiyyətlərinə qarşı daha yüksək tələblər irəli sürür. Bu, xüsusilə yetişməkdə olan gənc nəslin nümayəndələrinə aiddir. Son illərdə həmçinin cəmiyyətlərin həyatında bir sıra sosial və mənəvi aşınma elementləri müşahidə olunur ki, bunlar da daha çox gənc nəslin mənəviyyatına mənfi təsir göstərir. İnsanlar, xüsusən gənclər arasında həyatının məqsədini maddi rifahda, nəyin bahasına olursa-olsun, var-dövlət qazanmaqda görən, hər cür vasitə ilə asan qazanc əldə etmək istəyən bir təbəqənin formalaşması prosesi müşahidə edilir. Belə prosesin yaranması və inkişafına təkan verən başlıca amillərlən biri də narkomaniyanın və narkotizmin yayılması və inkişafıdır. Cəmiyyətin özəyi kimi ailənin dövlət himayəsində olduğunu, yetkinlik yaşına çatmayanların hüquqlarının qanunla mühafizə edildiyini, yetkinlik yaşına çatmayanlara qayğı göstərməyi elan edən Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsində göstərilmişdir: Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. 18 mart 2009-cu il tarixdə referendumla Azərbaycan Respublikası Konstitusiyasına edilən əlavə və dəyişiliklərdən sonra Konstitusiyanın iki hissədən ibarət olan, “Ailə və dövlət” adlanan 17-ci maddəsinin adı dəyişdirilərək “Ailə, uşaqlar və dövlət” adlandırıldı.

Sovet İttifaqının dağılması müstəqil dövlətlərin, demokratik cəmiyyətlərin yaranması kimi ciddi nailiyyətlər ilə, bəzi problemlərin də yaranmasına səbəb olmuşdur. Gənclər arasında yayılan cinayətkarlıq da bu sıradadır. Hər bir sivil cəmiyyətin perspektiv inkişafının sosial bazasını yetkinlik yaşına çatmayan şəxslər təşkil edir. Bu səbəbdən uşaqların sağlam mühitdə böyüməsi, layiqli vətəndaş kimi formalaşması dövlət siyasətinin əsas istiqamətlərindəndir. Sağlam və mütərəqqi sosial mühitin yaradılması istiqamətlərindən biri yetkinlik yaşına çatmayanların kriminal davranışlarının öyrənilməsi və bu neqativ təzahürün qarşısının alınması yollarının müəyyən edilməsidir.

Son dövrlər cinayətkarlığın səviyyəsinin artan xətlə inkişaf etməsi və yetkinlik yaşına çatmayanların cinayətkar aləmə cəlb olunması hallarının artması bu sahədə elmi araşdırmaların aparılmasını zəruri etmişdir. Azərbaycan Respublikası son illərdə yetkinlik yaşına çatmayanların cinayət işlərinin aparılması qaydalarını nizama salan bir çox beynəlxalq Konvensiya və aktlara qoşulmuşdur. Yetkinlik yaşına çatmayanlarla işin normativ-hüquqi əsası əsas etibarı ilə formalaşsa da, nəzəri baxımdan elmi-tədqiqat əsərləri çox az səviyyədədir. İctimai-təhlükəli əməllərin törədilməsinə görə cinayət məsuliyyətinə cəlb edilən yetkinlik yaşına çatmayan şəxslərə münasibət, onların barəsində cinayət təqibinin həyata keçirilməsi, cəza və digər cinayət-hüquqi xarakterli tədbirlərin təyini son illər dünyada olduğu kimi Azərbaycan Respublikasında da aktuallıq qazanmağa başlamışdır. Yaşlı şəxslər ilə müqayisədə yetkinlik yaşına çatmayan şəxslərin cinayət məsuliyyəti daha mürəkkəbdir. Cinayət törətmiş belə şəxslərin islah olunmaları və cəmiyyətə sağlam qayıtmaları olduqca vacib məsələlərdəndir.

Statistik məlumatlara əsasən hazırda Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin sayı ümumi cinayətkarlıqla müqayisədə cüzi yer tutur. Onlar içərisində törədilən cinayətlərin əksəriyyəti 16 - 17 yaş arasında olan şəxslərin payına düşür. Azərbaycan Respublikasında 2005-ci ildə 60 nəfər 14 - 15 yaşlarında olan yetkinlik yaşına çatmayan şəxs və 488 nəfər 16 - 17 yaşlarında olan yetkinlik yaşına çatmayan şəxs cinayət məsuliyyətinə cəlb edilmişdir. Yetkinlik yaşına çatmayanlar tərəfindən 2005-cü ildə 618 cinayət törədilmişdir. Bu isə ölkə ərazisində qeydə alınmış ümumi cinayətlərin (Azərbaycan Respublikasında 2005-ci il ərzində 18049 cinayət faktı qeydə alınmışdır) təqribən 3 %-ni təşkil etmişdir. 1991 - 1992-ci illərdə narkotiklərlə bağlı cinayət əməlinə görə bir nəfər də olsun azyaşlı cinayət məsuliyyətinə cəlb olunmadığı halda, 1993-cü ildə 19, 1994-cü ildə 31,

1995-ci ildə 40 nəfər azyaşlı bu növ əməllərə görə məsuliyyətə cəlb olunmuşdur.

1995-ci ildə Azərbaycan Respublikasında narkotiklərlə bağlı cinayətlərin ümumi sayı 2827, cinayət törətmiş şəxslərin sayı 2682 nəfər (bunlardan 40 nəfəri yetkinlik yaşına çatmayanlar), 1996-cı ildə 2701, cinayət törətmiş şəxslərin sayı 2527 nəfər (bunlardan 25 nəfəri yetkinlik yaşına çatmayanlar), 1997-ci ildə 2593, cinayət törətmiş şəxslərin sayı 2490 nəfər (bunlardan 27 nəfəri yetkinlik yaşına çatmayanlar), 1998-ci ildə 2445, cinayət törətmiş şəxslərin sayı 2314 nəfər (bunlardan 13 nəfəri yetkinlik yaşına çatmayanlar), 1999-cu ildə 2387, cinayət törətmiş şəxslərin sayı 2214 nəfər (bunlardan 12 nəfəri yetkinlik yaşına çatmayanlar), 2000-ci ildə 2370, cinayət törətmiş şəxslərin sayı 2120 nəfər (bunlardan 6 nəfəri yetkinlik yaşına çatmayanlar), 2001-ci ildə 2303, cinayət törətmiş şəxslərin sayı 2191 nəfər (bunlardan 5 nəfəri yetkinlik yaşına çatmayanlar), 2002-ci ildə 2190, cinayət törətmiş şəxslərin sayı 1955 nəfər (bunlardan 9 nəfəri yetkinlik yaşına çatmayanlar), 2003-cü ildə 2049, cinayət törətmiş şəxslərin sayı 1827 nəfər (bunlardan 6 nəfəri yetkinlik yaşına çatmayanlar), 2004-cü ildə 2053, cinayət törətmiş şəxslərin sayı 1807 nəfər (bunlardan 8 nəfəri yetkinlik yaşına çatmayanlar), 2005-ci ildə 2114, cinayət törətmiş şəxslərin sayı 1707 nəfər (bunlardan 6 nəfəri yetkinlik yaşına çatmayanlar) olmuşdur.

2008-ci ildə narkotiklərlə bağlı 2786, 2009-cu ildə 3027, 2010-cu ildə isə 3049 cinayət qeydə alınmışdır. Cinayət törətmiş şəxslərin sayı isə müvafiq olaraq 2101, 2376 və 2602 nəfər olmuşdur. 1995-ci ildə 615 nəfər yetkinlik yaşına çatmayan şəxs məhkum olunmuşdur ki, onun 26 nəfəri narkotik vasitələrlə bağlı cinayətləri törətmiş şəxslər olmuşlar. 2000-ci ildə bu rəqəm müvafiq olaraq 328 və 3, 2005-ci ildə 314 və 6, 2008-ci ildə 267 və 4, 2009-cu ildə 222 və 4, 2010-cu ildə isə 238 və 5 nəfər olmuşdur.

İkinci dünya müharibəsindən sonra demokratik dünya ictimaiyyəti insan hüquqları problemini ümumbəşəri əhəmiyyət kəsb edən problemlər siyahısına saldı. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1948-ci il 10 dekabr tarixində qəbul edilən «Ümumdünya insan hüquqları bəyannaməsi», 4 noyabr 1950-ci ildə Romada qəbul edilən «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyası insan hüquqları sahəsində ilk beynəlxalq hüquqi aktlardandır. Konvensiyanın 5-ci maddəsinə əsasən heç kəs qanunla müəyyən olunmuş hallardan və qaydadan başqa azadlığından məhrum edilə bilməz. Həmin hallardan biri də «d» bəndində aşağıdakı məzmunda müəyyən edilmişdi:

yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn qanuni həbsə alınması.

1949-cu ilin noyabrında Beynəlxalq Demokratik Qadınlar Federasiyasının sessiyasının qərarı ilə 1 iyun Uşaqları beynəlxalq müdafiə günü təsis edilmişdir. BMT Baş Məclisinin 20 noyabr 1959-cu il tarixli 1386 (XIV) saylı qətnaməsi ilə "Uşaq hüquqları Bəyannaməsi" qəbul edildi. "Uşaq hüquqlarına dair" BMT Baş Məclisinin 1989-cu il 20 noyabr tarixli Konvensiyası, BMT Baş Məclisinin 1985-ci il 6 sentyabr tarixli 40/33 saylı qətnaməsi ilə qəbul edilmiş "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinin minimum standart qaydaları" (Pekin qaydaları) mühüm beynəlxalq sənədlərdəndir. Azərbaycan Respublikası 1992-ci il 21 iyul tarixdə "Uşaq hüquqlarına dair" Konvensiyaya, 5 may 1993-cü ildə "Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi barədə Ümumdünya Bəyannaməsi"nə, 1993-cü il 28 iyun tarixdə "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinin minimum standart qaydaları" haqqında Konvensiyaya, və s. beynəlxalq müqavilələrə qoşulmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən yuxarıda qeyd edilən beynəlxalq sənədlərin tələblərinə uyğun olaraq 19 may 1998-ci ildə «Uşaq hüquqları haqqında» qanun qəbul edilmişdir. «Uşaq Hüquqları Haqqında» qanuna əsasən 18 yaşına çatmayanlar uşaq hesab edilir. Azərbaycan Respublikasının 31 may 2002-ci il tarixli Qanunu ilə «Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə» də təsdiq edilmişdir. Əsasnamənin 1-ci maddəsinə əsasən komissiyanın əsas məqsədi yetkinlik yaşına çatmayanlara tərbiyəvi təsir göstərməkdən, onların hüquqlarını və qanuni mənafelərini qorumaqdan, davranışına nəzarət etməkdən, qanuna zidd əməllərin qarşısını almaqdan, göstərilən məsələlərdə dövlət və yerli özünüidarəetmə orqanlarının, mülkiyyət formasından asılı olmayaraq müəssisələrin, idarələrin və təşkilatların fəaliyyətini əlaqələndirməkdən ibarətdir. Azərbaycan Respublikasında hakimiyyət uşaq hüquqlarının qorunmasına həssas yanaşdığından bu sahədə münasibətlərin qanunvericilik səviyyəsində tənzimlənməsinə xüsusi diqqət yetirir. Bunun nəticəsidir ki, ölkə rəhbəri, cənab Prezident İ.H.Əliyev 2012-ci il 8 may tarixli fərmanı ilə «Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydasını» təsdiq etmişdir.

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş və 1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Cinayət

Məcəlləsinin V bölməsinin «Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti» adlandırılmasına xüsusi fikir vermək lazımdır. Bölmədə yetkinlik yaşına çatmayanların barəsində cinayət məsuliyyətinin və cəzasının xüsüsiyyətləri tənzimlənir. Beləliklə, Azərbaycan Respublikasının cinayət qanunvericiliyi tarixində ilk dəfə olaraq qüvvədə olanq CM-də yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinin və cəzasının xüsusiyyətləri müstəqil ayrıca bölmə və fəsildə təsbit olunmuşdur.

Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi insanın mənəvi, fiziki, psixi sağlamlığını təhlükə altına alan, dövlət və cəmiyyət həyatının sabitliyinə ciddi şəkildə təsir göstərən sosial bəladır. Müasir dövrdə narkotiklərin və psixotrop maddələrin qeyri-tibbi məqsədlər ilə istehlakı və onun ağır forması kimi narkomaniya dünya ictimaiyyətinin qlobal problemlərindən sayılır. Ona görə də bütün dünyada olduğu kimi Azərbaycan Respublikasında və İran İslam Respublikasında da bu neqativ hadisənin təzahürlərinin və onunla uğurlu mübarizə məsələlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya mövzusunu aktual edən xüsusi bir məqam da vardır. Bu, fərqli hüquq sisteminə malik olan iki ölkədə: Azərbaycan Respublikasının və İran İslam Respublikasının qüvvədə olan cinayət qanunvericiliyinə görə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti məsələlərinin nəzərdən keçirilməsindən ibarətdir. Məlum olduğu kimi Azərbayan Respublikasının hüquq sistemi dünyəvi prinsiplərə, Avropa standartlarına, İran İslam Respublikasının hüquq sistemi isə dini, müsəlman hüquq sisteminə əsaslanır. İki fərqli hüquq sisteminə malik olan ölkədə bəhs edilən kriminal əməllərlə cinayət-hüquqi mübarizəni səciyyələndirən əlamətlərin, bir-birlərindən üstün və fərqli cəhətlərin müəyyən edilməsinin əhəmiyyəti şübhəsizdir.

Dissertasiya mövzusunu həmçinin ona görə aktual hesab edirik ki, o, gələcəyin qurucuları olan uşaqların, yetkinlik yaşına çatmayanların taleyinə həsr olunmuşdur.

**Problemin tədqiqi səviyyəsi**. Ötən əsrin axırlarından başlayaraq elmi-nəzəri ədəbiyyatlarda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə mövzusunun intensiv surətdə işlənməsinə, problemin müxtəlif aspektlərinin (sosial, hüquqi, kriminoloji, iqtisadi, bioloji, ekoloji) öyrənilməsinə ciddi diqqət yetirilməsinə başlanmışdır. Məsələn, L.N.Anisimov, Y.N.Arqunova, A.A.Qabiani, T.A.Boqolyubova, K.A.Telkin, V.S.Burdakov, M.Q.İkramova,

K.A.Karpoviç, Q.A.Levitskiy, Q.M.Meretukov, L.F.Roqatıx, E.Q.Strelçenko, S.B.Toporov, E.H.Həsənov, B.S.Zahidov, B.S.Turlebekov, N.V.İvansova, Q.S.Qaverov, D.D.Mironova, V.S.Orlov, A.İ.Dolqova, S.Y.Qasımov, Ş.Ə.Babayev və çoxsaylı digər müəlliflər narkotizmlə mübarizəyə dair yazdıqları əsərlərində problemin xeyli aspektlərini öyrənmişlər. Lakin qeyd olunan müəlliflərin və digər alimlərin araşdırmalarında narkotik vasitələr və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində yetkinlik yaşına çatmayanların iştirakına görə cinayət-hüquqi məsuliyyət məsələləri ayrıca və kompleks tədqiqata məruz qalmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan Respublikasında və İran İslam Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində yetkinlik yaşına çatmayanların iştiraklarına görə cinayət məsuliyyəti ilə bağlı məsələlər təşkil edir. Dissertasiyanın predmetini isə hər iki respublikada yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə məsuliyyət nəzərdə tutan cinayət hüququ normaları, bu növ əməllər ilə cinayət-hüquqi mübarizəni nəzərdə tutan qanunvericilik aktları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan Respublikasında və İran İslam Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyəti sahəsində mövcud olan nəzəri və təcrubi problemlərin kompleks halda tədqiqi və hər iki ölkədə bu sahədə kriminogen vəziyyətin yaxşılaşdırılmasına yönələn elmi tövsiyələrin işlənib hazırlanmasıdır.

Həmin məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizədə cinayət qanunvericiliyinin inkişaf tarixini nəzərdən keçirmək;
- Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakının hüquqi təhlilini aparmaq;
- Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayan şəxsin anlayışını nəzərdən keçirmək;
- Yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyətini araşdırmaq;

- Yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı əməllərinə görə cəza təyin etmə məsələlərini tədqiq etmək;

- İran İslam Respublikasında yetkinlik yaşına çatmayan şəxsin anlayışını nəzərdən keçirmək;

- İran İslam Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyəti məsələlərini araşdırmaq;

- İran İslam Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən yetkinlik yaşına çatmayanlara cəza təyini məsələlərini nəzərdən keçirmək;

- mövzu ilə əlaqədar qanunvericilikdə olan boşluqların müəyyən edilməsi və onların aradan qaldırılması ilə bağlı təkliflərin irəli sürülməsi.

**Dissertasiyanın metodologiyası və metodları.** Dissertasiyanın yazılması prosesində müəllif dialektikanın kateqoriyaları və müddəalarına əsaslanmışdır. Tədqiqat işində həm ümumelmi metodlardan (sistemli təhlil, induksiyadan deduksiyaya keçid, ümumidən konkretə doğru idrak və s.), həm xüsusi, həm də sahəvi metodlardan (formal məntiqi, tarixi-müqayisəli, müqayisəli hüquq, hüquq normalarının təfsiri və s.) istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri əsasıları**. Dissertasiyanın nəzəri əsasını hər iki ölkənin, keçmiş sovet, başlıca olaraq isə Rusiya və digər xarici ölkə alimlərinin ümumi hüquq nəzəriyyəsi, konstitusiya, kriminologiya, cinayət-prosessual, xüsusən isə cinayət hüququ sahəsində yazdıqları elmi əsərlər təşkil etmişdir. Normativ hüquqi aktlardan əsasən Konstitusiya və Cinayət Məcəlləsindən geniş istifadə olunmuşdur. Göstərilənlər ilə yanaşı əsas mənbə kimi Azərbaycan Respublikasının və İran İslam Respublikasının cinayət qanunvericiliyi, beynəlxalq-hüquqi aktlar ön planda olmuşdur. Elmi işi yazarkən bir sıra yerli və xarici, xüsusən rus müəlliflərin əsərlərindən geniş istifadə olunmuşdur. Azərbaycan Respublikasının uzun müddət keçmiş SSRİ-nin tərkibində olması digər sahələr kimi hüquq sahəsinin də birgə inkişafına səbəb olmuşdur. Bununla əlaqədar olaraq Azərbaycan hüquq elminin Rusya hüquq elmi ilə çox sıx və oxşar əlaqələri mövcuddur. Rusiyada cinayət törədən yetkinlik yaşına çatmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı çox sayda elmi əsərlər mövcuddur. Mövzu tədqiq olunarkən xüsusən yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlərin qarşısını almaq məsələləri, həmçinin gənclər arasında narkotizmin qarşısının alınması məsələlərini araşdıran elmi əsərlər də tədqiq olumuşdur.

**Dissertasiya işinin elmi yeniliyi** onunla müəyyən olunur ki, o, Azərbayjan Respublikası və İran İslam Respublikasının qüvvədə olan

cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti müəyyən edən normaların nəzəri və təcrubi problemlərinin kompleks şəkildə hüquqi təhlilinə həsr olunmuş ilk monoqrafik tədqiqat işidir. Müəllif tərəfindən tədqiqat zamanı narkotk vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayət hüququ nəzəriyyəsində və təcrübədə vacib əhəmiyyətli bir sıra məsələlərin həllinə səy göstərilmiş, cinayət qanunvericiliyinin və məhkəmə təcrübəsinin bu istiqamətdə təkmilləşdirilməsinə yönəlmiş təkliflər işlənib hazırlanmış, mühüm nəzəri və praktiki əhəmiyyətə malik olan bir sıra elmi nəticələr əldə olunmuşdur.

**Müdafiəyə təqdim olunan müddəalar:**

1. İran İslam Respublikasının hüquq sisteminin əsas mənbəyini dini hüquq sistemi - şəriət təşkil etdiyindən və islam ideologiyası narkotiklərlə mübarizəyə çağıran təlim olduğundan zəngin mənəviyyata əsaslanır, insana, onun fiziki cisminə və ruhuna ziyan vuran hər şeyi qadağan edir. Ona görə də İran İslam Respublikasında narkotizmə təkcə narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsini xarakterizə edən sosial hadisə kimi deyil, həmçinin insanın xarakterində şeytan xislətinin təzahürü kimi baxılır.

2. Azərbaycan Respublikasının qüvvədə olan CM-nin 84.1-ci maddəsinə əsasən cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. İran İslam Respublikasında isə kişilər üçün yetkinlik yaşına çatma onların üzündə tüklərin peyda olması və ya 15 yaşın tamam olması, qadınlar üçün isə cinsi yetkinliyə çatma və ya doqquz yaşın tamam olması ilə əlaqələndirilir. Azərbaycan Respublikasında olduğu kimi, İİR-da da yetkinlik yaşına çatmamanın son həddi (həm qızlar, həm oğlanlar üçün) 18 yaş müəyyən edilmişdir.

3. Azərbaycan Respublikasının CM-də olduğu kimi, İİR-nın İslam cinayət cəzaları qanununda yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb etmə adlı ümumi norma vardır (126-129-cu maddələr). Lakin Azərbaycan Respublikası CM-nin 170-ci maddəsində yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə əməlinin məzmunu daha aydın və əhatəlidir. Bununla belə, Azərbaycan Respublikası CM-nin 170-ci maddəsində yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə üsullarının qəti siyahısının verilməsi məqbul sayılmır. Cinayətkar fəaliyyətə cəlb etmə dedikdə, təqsirkar tərəfindən yetkinlik yaşına çatmayanı bu növ fəaliyyətə sövq edən istənilən hərəkətin edilməsi başa düşüldüyündən, Rusiya CM-də yetkinlik yaşına çatmayanı cinayətkar

fəaliyyətə cəlb etmə cinayətinin dispozisiyasında «digər üsullar» ifadəsindən istifadə olunması düzgün mövqe kimi qiymətləndirilir və Azərbaycan Respublikasının CM-nin 170-ci maddəsində bu istqamətdə dəyişikliyin edilməsi təklif edilir.

4. Azərbaycan Respublikası CM-nin 234-cü maddəsinə əsasən satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq olmayan miqdarda əldə edən və ya saxlayan şəxs cinayət məsuliyyətinə cəlb olunmur. İİR-da isə bu əməl cinayət məsuliyyəti ilə nəticələnir. Azərbaycan Respublikası qanunvericiliyindən fərqli olaraq İİR-nın Narkotik Maddələrin Dövriyyəsi ilə Mübarizə Qanunun 15-ci maddəsinə əsasən, narkotik vasitələri daşıyırkən yaxalanmış şəxs məhkəməyə narkotik vasitələrin istifadəçisi olduğu ilə bağlı müvafiq müalicə mərkəzlərində müalicə edildiyinə dair arayış təqdim etdikdə, cinayət məsuliyyətindən azad edilir.

5. İslamın təbiəti və mahiyyətinə uyğun olaraq İran İslam Respublikasının qanunvericiliyində bəzi cinayətlərə görə həddindən artıq sərt, bəzi cinayətlərə gərə isə xeyli dərəcədə yumşaq cəzalar nəzərdə tutulmuşdur. İslam Cinayət Cəzaları qanunu yetkinlik yaşına çatmayanların tərbiyə edilməsi məqsədi ilə cismani cəzaya məruz qalmasını tanıyır, uşağa cismani cəzanın verilməsinə zərurət olduqda onun tətbiqi məqsədəmüvafiq sayılır, lakin o, hər bir halda zəruri həddi aşmalı deyildir. Cismani cəzaların verilməsi ilə islam doktrinasının məqsədinin insanın əlinin kəsilməsi və ya ölümünəcən daşqalaq edilməsi deyil, qanunun pozulmasına yol verilməməsi üçün qorxu yaratmaqdan ibarət olduğu qeyd edilir.

6. İran İslam Respublikasının cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etmələrinə görə məsuliyyətin differensiasiyası aparılmasa da, təcrübədə məhkəmələrin onlara verilmiş səlahiyyətlər əsasında yetkinlik yaşına çatmayanlara yaşlı şəxslər ilə müqayisədə nisbətən yüngül cəzaların təyin edilməsinə üstünlük vermələri müəyyən olunmuşdur. İran İslam Respublikasında əvvəllər qüvvədə olmuş qanuna əsasən bu növ cinayətləri törətmiş şəxslərə ağır cəzalar tətbiq edilsə də, 2013-cü ildən qüvvəyə minmiş yeni qanuna əsasən yetkinlik yaşına çatmayan şəxslərə xeyli dərəcədə yüngül cəzalar tətbiq olunur.

7. Azərbaycan Respublikasının CM-də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə məsuliyyət nəzərdə tutan 234.1, 234.2, 234.3, 235.1, 235.2, 236.1, 237.1, 238.1, 239.1-ci maddələr az ağır cinayətlər kateqoriyasına aid olsa da, qanunda nəzərdə tutulmuş tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi ilə yetkinlik yaşına

çatmayanların cinayət məsuliyyətindən azad edilməsinə nadir hallarda rast gəlinir. Bunun səbəbi subyektiv amillər ilə yanaşı, həmin tədbirlərin əməli-tətbiqi mexanizmlərinin olmaması kimi obyektiv amillər ilə də izah edilir.

8. Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunu ilə İİR-nın cinayət qanununun müqayisəsinin aparılması sonuncuda cəzanı yüngülləşdirən halların sayının az olduğunu müəyyən etməyə imkan vermişdir. Azərbaycan Respublikası CM-nin 59.1.2-ci maddəsindən fərqli olaraq İİR-nın cinayət qanununda cəzanı yüngülləşdirən hallar siyahısında cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsinin yüngülləşdirici əlamət kimi müəyyən olunmaması qüsur kimi qiymətləndirilir və İİR-nın İslam Cinayət cəzaları haqqında qanununun 22-ci maddəsində cəzanı yüngülləşdirən halların siyahısına cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsinin daxil edilməsinə dair əsaslandırılmış təklif irəli sürülür.

9. Azərbaycan Respublikasının qüvvədə olan CM-dən 7 mart 2012-ci il tarixli Qanun ilə əmlak müsadirəsi cəzanın sistemindən çıxarılmış, cinayət-hüquqi xarakterli digər tədbirlərin bir növü olaraq "xüsusi müsadirə" institutu yaradılmışdır. Bu, mülkiyyətin toxunulmazlığı və dövlət tərəfindən müdafiə olunmasını nəzərdə tutan konstition müddəaya uyğundur. "Narkotik maddələrin dövriyyəsi ilə mübarizə haqqında Qanunu"na 31.07.2010-cü ildə edilən dəyişiklik ilə İran İslam Respublikasında da bu istiqamətdə islahatın aparılmasının başlanğıcı qoyulmuşdur. Belə ki, həşiş, çərəs, qras, tiryək, şirə, yanıq, tiryək tullantısı və digər narkotik maddələr və ya qeyri-dərman istifadəli sənaye istehsalı psixotrop maddələri (müvafiq siyahı İslam Şurası Məclisi tərəfindən təsdiq edilir) hər hansı bir yol ilə ixrac edilməsi, göndərilməsi və ya onların istehsalı, satışı, paylanılması və ya satış şəraitinin hazırlanmasına təşəbbüs edilməsinə görə nəzərdə tutulan sanksiyada "cinayət törətmiş şəxsin normal yaşamı üçün lazımi hesab edilən əmlaklar istisna olmaqla əmlakın müsadirə edilməsi" sözləri "əmlakın törədilən cinayətə uyğun olaraq müsadirə edilməsi" sözləri ilə əvəz edilmişdir. Azərbaycan Respublikasının CM-də xüsusi müsadirə ilə bağlı təsbit olunmuş müddəa mütərəqqidir, mülkiyyətin müdafiəsi ilə bağlı beynəlxalq hüquq normalarına uyğundur, tətbiqi mexanizmi sadədir (CM-nin Xüsusi hissəsinin maddələrinin sanksiyalarında deyil, Ümumi hissəsində təsbit olunmuşdur). Odur ki, İİR-nın İslam Cinayət cəzaları haqqında qanununda həmin məzmunlu normanın yaradılmasını məqsədəuyğun hesab edirik.

10. İİR-da əl-ayağın kəsilməsi, ölüm cəzasının daşqalaq edilməklə icra olunması nəzərdə tutulsa da, təcrübədə vəziyyətin bir qədər qədər fərqli

olduğu müəyyən edilmişdir. Həmin cəzaların tətbiq edilməsi üçün qanunda mürəkkəb, ödənilməsi çətin olan şərtlər müəyyən edildiyindən, onların tətbiqinə demək olar ki, çox az hallarda rast gəlinir. Digər tərəfdən, humanizm nöqteyi-nəzərindən bir qayda olaraq ölüm cəzası daşqalaq üsulu ilə icra edilmir. Göstərilən edam üsulu İran Ali Məhkəməsinin müraciəti əsasında İranın Ali Dini Rəhbərinin razılığı ilə başqa üsullarla, məsələn, güllələnmə ilə əvəz edilir.

11. Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanununda yetkinlik yaşına çatmayanların psixi inkişaf səviyyəsi, yaşlı şəxslərin onlara təsir etmə amilləri və şəxsiyyətlərinin digər xüsusiyyətləri nəzərə alınaraq, onlar üçün cinayət məsuliyyəti və cəza təyini məsələlərində yetkin şəxslər ilə müqayisədə müəyyən fərqli, imtiyazlı müddəalar təsbit olunmuşdur. Belə ki, yetkinlik yaşına çatmayanlar barəsində tətbiq edilən cəzalar yumşaldılmışdır, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər üzrə məsuliyyətə cəlb etmə müddətləri, habelə hökmlərin icra müddətləri qısaldılmışdır, yetkinlik yaşına çatmayanların törətdiyi cinayətlərlə bağlı qısaldılmış məhkumluq müddətləri tətbiq edilir, qanunda yetkinlik yaşına çatmayanlar barəsində cəza təyinində yetkin şəxslər üçün müəyyən olunmuş hallardan əlavə, digər hallar da nəzərə alınır. Azərbaycan Respublikası CM-nin bu mütərəqqi müddəalarının oxşar adət-ənənə, mədəniyyətə, mentalitetə, eyni dinə malik olan İran İslam Respublikasının əhalisi üçün tətbiqinin faydalı olacağı şübhəsizdir və bu səbəbdən islam cinayət cəzaları qanununun həmin istiqamətdə təkmilləşdirilməsi məqsədəuyğun sayılır.

12. Cinayət məsuliyyəti və cəza təyini cinayət-prosessual qanunla realizə olunur. Azərbaycan Respublikasının CM-də olduğu kimi Cinayət-Prosessual Məcəlləsində də yetkinlik yaşına çatmayanlar üçün müəyyən imtiyazlar nəzərdə tutulmuşdur. Bu baxımdan Azərbaycan Respublikası CPM-nin 435.4-cü maddəsi diqqətəlayiq sayılır və İran İslam Respublikasının qanunvericiliyində həmin maddəyə uyğun məzmunda müddəanın təsbit olunması təklif edilir.

13. Statistik məlumatların təhlili həm narkotiklərlə bağlı törədilən cinayətlərin, həm bu növ cinayətləri törətmiş şəxslərin, o cümlədən, yetkinlik yaşına çatmayanların sayında ümumilikdə get-gedə azalma tempinin olduğunu göstərir. Bununla belə, hüquq pozuntuları, o cümlədən, cinayətlərin dinamikası və strukturu haqqında məlumatların yalnız statistik rəqəmlər əsasında təhlil edilməsi və nəticələrin çıxarılması heç də tam və obyektiv sayıla bilməz. Konkret növ cinayətlərin dinamikası və səbəbləri barəsində dəqiq fikir söyləmək üçün həmin növdən olan cinayət işlərinin

materiallarının öyrənilməsi və ümumiləşdirmələrin aparılması da zəruridir. Ona görə də hüquq-mühafizə orqanları, əlaqədar dövlət qurumları və müvafiq ictimai təşkilatların vaxtaşırı yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər, o cümlədən, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər haqqında materialların ümumiləşdirmələrini aparmaları zəruri sayılır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti:** Tədqiqatın nəzəri əhəmiyyəti ilk növbədə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyəti və cəza təyini məsələləri barəsində elmi-nəzəri təsəvvürləri genişləndirməsində ifadə olunur. Dissertasiya işinin praktik əhəmiyyəti isə yetkinlik yaşına çatmayanların narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyəti və cəza təyini məsələlərinin həlli zamanı elmi və nəzəri cəhətdən əsaslandırılmış müddəaların tətbiq edilməsi, bu növ cinayətlərin qarşısının alınması, profilaktik tədbirlərin işlənib hazırlanması, cinayət qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üçün faydalı ola biləcəyində ifadə olunur.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universitetinin «Cinayət hüququ və kriminologiya» kafedrasında yerinə yetirilmiş və müzakirə olunmuşdur. Dissertasiyanın əsas müddəaları müəllif tərəfindən dərc olunmuş elmi məqalələrdə öz əksini tapmışdır. Elmi işin tədqiqatından doğan və cinayət hüquq nəzəriyyəsinin zənginləşdirilməsinə, hüquqtətbiqetmə fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş təkliflər barəsində müxtəlif elmi konfrans və seminarlarda, o cümlədən, 2011-ci ilin may ayında AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda «Ulu öndər Heydər Əliyevin ad gününə həsr olunmuş «Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları» mövzusunda keçirilən beynəlxalq elmi konfransında «Yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə əməlinin hüquqi təhlili haqqında (Azərbaycan Respublikası və Rusiya Federasiyası qanunvericiliklərinin müqayisəli təhlili əsasında)», 2012-ci ilin mart ayında «Hüquq elminin müasir problemləri» - II Respublika elmi-nəzəri konfransında «İran İslam Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyətinin bəzi məsələləri» adlı mövzularda çıxışlar edilmişdir.

**Dissertasiya işinin quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısı hissələrindən ibarətdir.

## II. İŞİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **giriş** hissəsində dissertasiya mövzusunun aktuallığı əsaslandırılır, onun məqsəd və vəzifələri, elmi-nəzəri əsasları, elmi yeniliyi, nəzəri və təcrubi əhəmiyyəti müəyyən olunur, müdafiəyə çıxarılan müddəalar təqdim olunur, tədqiqatın nəticələrinin aprobasiyası haqqında məlumat verilir.

Birinci fəsil Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakına görə cinayət məsuliyyətini tənzim edən qanunvericiliyin inkişafı tarixinə həsr olunmuşdur. Burada Azərbaycanın əvvəlcə Rusiya İmperiyasının, sonra isə SSR İttifaqının tərkibində olduğu dövrlərdə qəbul olunmuş cinayət qanunvericiliyi aktlarında bəhs edilən əməllərə görə məsuliyyət nəzərdə tutan normalar nəzərdən keçirilmişdir.

Dünyanın bəzi regionlarında narkotik submədəniyyətin tarixi kökləri mövcud olsa da, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda tarixən narkotik xassəli bitkilərin əkilib becərilməsi və ya yabanı şəkildə bitməsi, onlardan istehsal edilən məhsulların məişətdə müxtəlif təyinatla, o cümlədən, ağrıkəsici, yuxugətirici dərman kimi tibbi məqsədlərlə, xaş-xaş tumlarının çörəyin üstünə səpməklə bişirilməsi, kəndir istehsalı zamanı, evlərin damını örtmək və sair məqsədlər ilə istifadə olunmuşdur. Azərbaycan cinayət hüquq elmində narkotik cinayətkarlığa həsr olunmuş sanballı əsərlərin müəllifi B.S.Zahidova görə Azərbaycanda bu bitkilərdən keflənmək məqsədi ilə sui-istifadə edilməsi hallarına dair tarixi faktlar müəyyən edilməmişdir.[1]

İran İslam Respublikasının hüquq sisteminin əsas mənbəyini dini hüquq sistemi - şəriət təşkil edir. Quranın təfsiri ilə məşğul olan alimlərin əksəriyyəti hesab etmişlər ki, islam dini narkotik vasitələrdən istifadəni qadağan edir. İslam ideologiyası narkotiklərlə mübarizəyə çağıran təlim olduğundan, sağlam düşüncəyə və zəngin mənəviyyata əsaslanır, əhli-kefliyi, sərsəri həyat tərzini və tüfeyliliyi rədd edir, insana, onun fiziki cisminə və ruhuna ziyan vuran hər şeyi qadağan edir. Ona görə də İran İslam Respublikasında narkotizmə təkcə narkotik vasitələrin və ya psixotrop maddələrin həkim təyinatı olmadan kütləvi istehlakı, onlarla qanunsuz əməliyyatların həyata keçirilməsi, digər şəxslərin bu maddələrdən qeyri-tibbi məqsədlər ilə qəbul etmələrinə cəlb edilmələri və həmin maddələrin qanunsuz dövriyyəsinin digər hallarını xarakterizə edilən sosial

[1] Защидов Б.С. Наркотизм вя наркобизнес: тювсиф мясяляляри. Бакы: Бакы Университети няшриййаты, 2003, с. 21.

hadisə kimi deyil, həmçinin insanın xarakterində şeytan xislətinin təzahürü kimi baxılır.

Azərbaycan Respublikasında sovet hakimiyyətinin ilk illərində qanunvericilik səviyyəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı əməllər ilə elə də ciddi mübarizə aparılmamışdır. Belə ki, bu növ əməllər cinayət qanununda özünün düzgün əksini tapmamış, faktik olaraq ehtikarlığın təhlükəli növlərindən biri kimi qiymətləndirilmişdir. Bununla belə, həmin illərdə analogiyadan istifadə edilməklə bəhs edilən əməllərlə faktiki mübarizə kifayət qədər sərt aparılmış, Xalq Ədliyyə Komissarlığı möhtəkirliyin bu növü ilə məşğul olanların xüsusi amansızlıqla cəzalandırılması haqqında qərarlar qəbul etmişdir. Əvvəlki Cinayət Məcəllələri ilə müqayisədə Azərbaycan SSR-in 1960-cı il Cinayət Məcəlləsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinin müəyyən differensiasiyasının aparıldığı qeyd olunur. Həmin Məcəllənin qüvvədə olduğu dövrdə cinayət törədənədək 18 yaşına qədər olan şəxslərə ölüm cəzası, 10 ildən artıq müddətə azadlıqdan məhrumetmə, sürgün və köçürmə kimi cəzalar tətbiq oluna bilməzdi.

Dissertasiyanın ikinci fəsli «Azərbaycan Respublikası qanunvericiliyində yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyətinin tənzimlənməsi məsələləri» adlanır və üç paraqrafdan ibarətdir. Birinci paraqrafda Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yetkinlik yaşına çatmayan şəxsin anlayışı müəyyən olunur. Hüquq nəzəriyyəsində və qanunvericilikdə bu yaş həddində olan şəxslərin adlandırılması üçün müxtəlif ifadələrdən istifadə olunduğu müəyyən edilir: yetkinlik yaşına çatmayan, həddi-büluğa çatmayan, azyaşlı, uşaq, yeniyetmə və s.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli fərmanı ilə təsdiq edilən «Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydası» haqqında qanunun 1.2-ci maddəsinə əsasən dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması, uşaq hüquqlarının pozulmasına səbəb olan halların aradan qaldırılması və səbəb ola biləcək halların qarşısının alınmasıdır. Qanunun 1.3-cü maddəsinə əsasən dövlət nəzarətini Azərbaycan Respublikasının qanunları əsasında müəyyən edilmiş fəaliyyət istiqamçətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İlman Nazirliyi, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları həyata keçirirlər.

Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli Qanunu ilə təsdiq edilmiş və 1 sentyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Cinayət Məcəlləsinin V bölməsi «Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti» adlanır. Bölmə «Yetkinlik yaşına çatmayanların barəsində cinayət məsuliyyətinin və cəzasının xüsüsiyyətləri» adlı on dördüncü fəsildən ibarətdir. Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə əsasən cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmamış şəxslər yetkinlik yaşına çatmayan şəxslər hesab olunur. CPM-nin 428.2-ci maddəsinə əsasən də cinayət prosesində yetkinlik yaşına çatmayanlar dedikdə, cinayətin törədilməsi anınadək on səkkiz yaşına çatmamış şəxslər başa düşülür. Qanunda 14 yaşdan 18 yaşa qədər olan şəxslər yetkinlik yaşına çatmayanlar qrupuna aid edilərkən, onların kifayət qədər əqli yetkinliyə çatmadıqları və həyat təcrübələrinin az olması halları nəzərə alınmışdır.

Fəslin ikinci paraqrafında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyəti məsələləri nəzərdən keçirilmişdir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 20.1-ci maddəsinə əsasən cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. Azərbaycan Respublikası CM-in 20.2-ci maddəsinə əsasən on dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, zorlamağa, seksual xarakterli zorakılıq hərəkətlərinə, oğurluğa, soyğunçuluğa, quldurluğa, hədə-qorxu ilə tələb etməyə, talama məqsədi olmadan qanunsuz olaraq avtomobil və ya başqa nəqliyyat vasitəsi ələ keçirməyə, ağırlaşdırıcı hallarda əmlakı qəsdən məhv etməyə və ya zədələməyə, terrorçuluğa, adamları girov götürməyə, ağırlaşdırıcı hallarda xuliqanlığa, odlu silahı, döyüş sürsatını, partlayıcı maddələri və qurğuları talamağa və ya hədə-qorxu ilə tələb etməyə, narkotik vasitələri talamağa və ya hədə-qorxu ilə tələb etməyə, nəqliyyat vasitələrini və ya yolları yararsız vəziyyətə salmağa görə cinayət məsuliyyətinə cəlb edilir. Beləliklə, narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar yuxarıda sadalanan cinayətlər içərisində yalnız

narkotik vasitələri və ya psixotrop maddələri talamağa və ya hədə-qorxu ilə tələb etmə cinayətinin subyekti 14 yaşına çatmış şəxslər ola bilər, digər cinayətlərin subyekti isə 16 yaşına çatmış ola bilər.

Azərbaycan Respublikası CM-in 26-cı fəsli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər» adlanır. Bu fəsil CM-in İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər adlanan 9-cu bölməsinin tərkibinə daxildir. Rusiya Federasiyasının qüvvədə olan 1996-cı il CM-də də bu fəsil eyni adlı bölmənin tərkibindədir. Lakin Azərbaycan Respublikasından fərqli olaraq Rusiya CM-də narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə müstəqil fəsil ayrılmamış, həmin cinayətlər «Əhalinin sağlamlığı və ictimai mənəviyyat əleyhinə olan cinayətlər» adlanan 25-ci fəslin tərkibində təsbit olunmuşdur. Rusiya qanunvericiliyi bunu əhalinin sağlamlığı, ictimai mənəviyyat əleyhinə olan cinayətlər ilə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin bir-birinə yaxın olması ilə əlaqələndirmişdir. Müasir mərhələdə bunun Rusiya dövlətinin sosial-hüquqi siyasətinə uyğun olduğu göstərilir.[1]

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin ümumi obyekti şəxsiyyətin sağlamlığının təhlükəsizliyini təmin edən ictimai münasibətlər sayılır. Bu cinayətlər obyektiv cəhətdən adətən fəal hərəkətlərlə törədilir. Bu cinayətləri nəzərdə tutan normaların dispozisiyası blanket xarakterlidir. Qanunverici cinayət tərkiblərinin əlamətlərini müəyyən edərkən əksər hallarda ya müvafiq qaydaların (narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin) pozulmasının nədən ibarət olduğunu, ya da cinayət predmetlərinin konkret siyahısını (narkotik vasitələr, psixotrop maddələr) göstərməmişdir. Ona görə də həmin cinayətlərin predmetlərinin əlamətlərinin və obyektiv cəhətinin xarakterinin müəyyən edilməsi üçün müvafiq normativ aktlara müraciət edilməsi lazım gəlir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydaları pozmaqla narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları ilə bağlı törədilən hər hansı hərəkətlərdir. Həmin hərəkətlərə aşağıdakılar aiddir: həyata keçirilməsi üsulundan asılı olmayaraq tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz

---

[1] Курс уголовного права. Особенная часть. Том. 4. Учебник для вузов. Под ред. д.ю.н., проф. Г.Н.Борзенкова и д.ю.н., проф. В.С.Комиссарова. – М.: ИКД «Зерцало-М», 2002. С. 348.

kultivasiyası (əkilməsi, yetişdirilməsi və ya toplanması); narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz hazırlanması (istehsalına, emalına, saflaşdırılmasına və ya bir narkotik vasitənin, yaxud psixotrop maddənin digər narkotik vasitəyə və ya psixotrop maddəyə çevrilməsi yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin alınmasına, yaxud onların təsirinin gücləndirilməsinə, tərkibində narkotik maddələr olan bitkilərin kultivasiyasına yönəldilmiş hərəkətlər); narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz daşınması və ya göndərilməsi (şəxsin özündə, poçtla, nəqliyyat vasitələri ilə, daşınan predmetin narkotik vasitələr və psixotrop maddələr olması haqqında məlumatı olmayan şəxsin vasitəsi ilə və digər yollarla yerinin dəyişdirilməsinə yönəldilmiş hərəkətlər); narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz əldə edilməsi (alınması, hədiyyə və ya qarşılıqlı hesablaşma vasitəsi kimi qəbul edilməsi, başqa mallara və əşyalara dəyişdirilməsi, mənimsənilməsi və ya hər hansı digər üsulla onlara yiyələnmə); narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz saxlanması (məqsədindən asılı olmayaraq şəxsin idarəçiliyində olan narkotik vasitələrin və psixotrop maddələrin öz sərəncamında saxlanmasına yönəldilmiş hərəkətlər); narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz satılması (miqdarından asılı olmayaraq narkotik vasitələrin və psixotrop maddələrin əvəzli və ya qazanc əldə etmək, yaxud digər şəxsi maraq məqsədi ilə yayılmasına yönəldilmiş hərəkətlər); narkotik vasitələrin və psixotrop maddələrin başqa şəxsin orqanizminə onun iradəsinə zidd olaraq hər hansı üsulla yeridilməsi; narkotik vasitələrin və psixotrop maddələrin ərzaq məhsullarına, içkilərə və ya qidaya istehlakçının xəbəri olmadan əlavə edilməsi; Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin tibbi göstəriş əsasında həkimin təyinatı olmadan qəbul edilməsi; narkotik vasitələrin və psixotrop maddələrin başqa şəxs tərəfindən qanunsuz istehlakına yardım edilməsi (bu məqsədlə başqa şəxslərə hər hansı bir şəxs tərəfindən vəsait, avadanlıq və ya yer verilməsi, yaxud da belə istehlaka bilavasitə köməklik göstərilməsi); narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına təhrik etmə (bədii, audio, video və sair materialların, o cümlədən kompüterləşdirilmiş informasiya və digər vasitələr ilə düzünə və ya dolayı yolla narkotik vasitələrin və psixotrop maddələrin istehlakına təhrik); nəticəsindən asılı olmayaraq düzünə və ya dolayı yolla digər şəxslərin narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz istehlakına cəlb edilməsi (təklif etmə, qonaq etmə və sair); tibbi göstəriş əsasında həkimin təyinatı olmadan

narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığa gətirə biləcək şəkildə onların qəbul edilməsi.

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi sahəsində aşağıdakı əməllərə görə cinayət məsuliyyəti müəyyən olunmuşdur:

- qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya da satma (CM-in 234-cü maddəsi);
- narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə (CM-in 235-ci maddəsi);
- narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə (CM-in 236-cı maddəsi);
- qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə (CM-in 237-ci maddəsi);
- narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama (CM-in 238-ci maddəsi);
- narkotik vasitələri və ya psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma (CM-in 239-cu maddəsi);
- güclü təsir edən və ya zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi (CM-in 240-cı maddəsi);

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin əksəriyyəti yaşlı şəxslərin təhrikçiliyi ilə törədildiyindən, işdə Azərbaycan Respublikası CM-nin 170-ci maddəsində nəzərdə tutulan yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etməli əməlinin hüquqi təhlili aparılmışdır. Azərbaycan Respublikası CM-nin 170-ci maddəsində yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə üsullarının qəti siyahısı verilmişdir. Rusiya Federasiyasının CM-də oxşar əmələ görə məsuliyyət nəzərdə tutan 150-ci maddənin 1-ci hissəsinə əsasən isə yetkinlik yaşına çatmayan aldatma, vədlər vermə, hədə-qorxu vasitəsi ilə yanaşı digər üsullarla da cinayətkar fəaliyyətə cəlb edilə bilər. Fikrimizcə, Rusiya CM-də yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə cinayətinin dispozisiyasında «digər üsullar» ifadəsindən istifadə olunması düzgün yanaşmadır. Digər üsullara yetkinlik yaşına çatmayanın ələ alınması, onda intiqam hissinin yaradılması, cəzasız qalacağına ümidləndirilməçi və sair aid edilə bilər. Çünki cinayətkar fəaliyyətə cəlb etmə dedikdə, təqsirkar tərəfindən yetkinlik yaşına çatmayanı bu növ fəaliyyətə sövq edən istənilən hərəkətin edilməsi başa düşülməlildir. Belə hərəkətlər hər bir halda şəxsə birbaşa fiziki və ya psixi təsir göstərməklə

əlaqədar olur. Ona görə də Azərbaycan Respublikasının CM-də yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb etmə üsullarının qapalı saxlanılmasını məqbul hesab etmirik, Rusiya cinayət qanunvericliyinin mövqeyini daha düzgün hesab edirik.

Azərbaycan Respublikasının CM-dən fərqli olaraq İslam cinayət cəzaları qanununda yetkinlik yaşına çatmayanların cinayətkar fəaliyyətə cəlb etmə adlı ümumi norma yoxdur. Bu, İİR-nın cinayət qanunvericiliyinin qüsuru kimi qiymətləndirilir və bu yaşda olan şəxslərin yaşlı şəxslərin təsiri altına tez düşmələrini nəzərə alaraq İslam cinayət cəzaları qanununda belə bir ümumi normanın təsbit olunması məqsədəuyğun sayılır.

İkinci fəslin üçüncü paraqrafında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı əməllərinə görə cəza təyini məsələləri araşdırılmışdır.

CM-nin 84.2-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər. CM-in 85.1-ci maddəsinə əsasən isə yetkinlik yaşına çatmayanlara aşağıdakı cəza növləri təyin edilir:

- cərimə;
- ictimai işlər;
- islah işləri;
- müəyyən müddətə azadlıqdan məhrum etmə.

Beləliklə, Azərbaycan Respublikası CM-nin cəza sistemində cinayət törədən yetkinlik yaşına çatmayanlara təyin edilə bilən cəza növlərinə məhdudiyyət qoyulmuşdur. Ömürlük azadlıqdan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, habelə cinayət törədən hərbi xidmətdə olan şəxslər barəsində tətbiq edilən cəzalar yetkinlik yaşına çatmayanlar barədə tətbiq edilmir. Bundan əlavə, yaşa dolmuş məhkumlarla müqayisədə yetkinlik yaşına çatmayanların cəzadan azad edilməsi, məhkumluqlarının götürülməsində, cinayət məsuliyyətdən azad edilmələrində daha güzəştli şərtlər müəyyən edilmişdir. Cinayət qanunu onların hətta az ağır cinayətlərə görə məsuliyyətdən azad edilməsinə yol verir. Qanunverici bu zaman yetkinlik yaşına çatmayanların kifayət qədər əqli yetkinliyə və iradi kamilliyə malik olmamasını, onların kifayət qədər düşünülməmiş addımlar ata bilmələrini, xarici təsirlərə daha tez reaksiya vermələrini, davranışlarına nəzarət etmək qabiliyyətlərinin zəifliyini və s. bu kimi halları nəzərə almışdır. Bununla da yanlış yol seçmiş yetkinlik yaşına çatmayan şəxslərə bir daha düşünmələri, normal həyat yoluna qayıtmaları üçün şans verilir.

Azərbaycan Respublikası CM-in «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər» adlanan 26-cı fəslinə daxil olan normaların sanksiyasında aşağıdakı cəza növləri nəzərdə tutulmuşdur:

- cərimə
- islah işləri;
- müəyyən müddətə azadlıqdan məhrum etmə;
- müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə.

Müqayisəli təhlil ilə belə nəticəyə gəlinir ki, CM-də yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş cəza növlərindən yalnız ictimai işlər cəza növü narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə görə məsuliyyət nəzərdə tutan normaların sanksiyalarında nəzərdə tutulmamışdır.

Dissertasiyanın üçüncü fəsli «İran İslam Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyəti və cəza təyin etmə məsələləri» adlanır və üç paraqrafdan ibarətdir. Birinci paraqraf İran İslam Respublikasında yetkinlik yaşına çatmış şəxsin anlayışına həsr olunmuşdur.

Müsəlmanlar anadan olduğu andan etibarən hüquq qabiliyyətinə, yetkinlik yaşına çatdıqda isə fəaliyyət qabiliyyətinə malik olurlar. Kişilər üçün yetkinlik yaşına çatma, onların üzündə tüklərin peyda olması və ya 15 yaşın tamam olması, qadınlar üçün isə cinsi yetkinliyə çatma və ya doqquz yaşın tamam olması ilə əlaqələndirilir. Şəriət qaydalarına əməl etməklə bağlanmış nikahdan doğulan uşaqlar, nikahdankənar doğulan uşaqlarla müqayisədə daha üstün hüquqlara malikdilər.

İslam cinayət hüququ həm uşağın müəyyən qanun pozuntusunda təqsiri olduğu halda məsuliyyətini, həm də yetkinlik yaşına çatmayan olduğu üçün onun hüquqlarının qorunmasını nəzərdə tutur. İslam cinayət hüququ oğlan uşaqlarını cinayət məsuliyyəti daşımaq iqtidarında olmaq baxımından üç yaş qrupuna ayırır. Birinci qrupa mənsub olan oğlanlar tam cinayət məsuliyyəti daşımaq iqtidarında hesab olunurlar. Bu yaş həddi oğlanın 18 yaşının tamamlanması ilə başlanır. İkinci yaş qrupuna mənsub olan oğlanlar hələ cinayət məsuliyyəti daşımaq iqtidarında deyillər. Bu qrupa 11 yaşı tamam olmamış oğlanlar aiddir. Üçüncü qrupa isə 11 yaşı tamamlanmış, lakin hələ 18 yaşına çatmamış oğlanlar mənsubdurlar. İslam hüququna görə bu yaş qrupuna daxil olan oğlanlar natamam fəaliyyət qabiliyyətli hesab edilirlər. 11 yaşını tamam olmuş, lakin 15 yaşı hələ

tamam olmamış oğlanlar və 15 yaşı tamam olmuş, lakin 18 yaşına çatmamış oğlanlar olmaqla iki yaş qrupuna bölünürlər. 11 yaşına çatmış, lakin 15 yaşı tamamlanmamış oğlanlar əgər pisi yaxşıdan seçmək iqtidarında deyildirlərsə, onlara qarşı heç bir cəza tədbiri nəzərdə tutulmur. Əgər uşaq törətdiyi əməlin günah və ya qanun pozuntusu olduğunu dərk etmişsə, ona qarşı hədd-imkan xarakterli cəza tətbiq edilir. Lakin onlar 18 yaşa çatanadək cəzalarını islah müəssisələrində çəkirlər. 15 yaşı tamam olmuş, 18 yaşı tamamlanmamış uşaqların pisi yaxşıdan ayırmaq qabiliyyətinə malik olub-olmamağından asılı olaraq uşağın cinayət məsuliyyətini daşımaq iqtidarında olması müəyyən edilir. Bununla belə, ona veriləcək cəzanın aşağı həddi məhkəmənin hökmündən asılıdır.[1]

Müasir qeyri-müsəlman cəmiyyətlərində uşaqlarla əlaqədar olan cinayətkarlığın, o cümlədən, uşaqlar arasında narkotik maddələrə aludə olmaq hallarının, uşaq pornoqrafiyasının və s. yayılması ilə müqayisədə müsəlman cəmiyyətlərində belə halların sayının az olması və ya bəzən heç olmaması onu göstərir ki, islam fiqh elminin, xüsusən onun uşaq hüquqlarının qorunması ilə əlaqədar olan müddəalarının potensial imkanları nəinki tükənməmiş, əksinə, müasir dövrün bir sıra fəsadlarının aradan qaldırılmasında örnək rolunu oynaya bilər.

İkinci paraqrafda İran İslam Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyəti məsələləri araşdırılmışdır. İran İslam Respublikasının 1979-cu il Konstitusiyasının 4-cü maddəsinə əsasən cinayət qanunu islam inqilabına uyğun olmalıdır, 156-cı maddədə isə göstərilir ki, cinayətlərə görə məsuliyyət müəyyən edilərkən şəriət normaları tətbiq edilməlidir. İnqilabdan sonrakı ilk illərdə cinayət işlərinə baxılarkən əsas mənbə kimi İİR-nın Ali Dini Rəhbəri R.M.Xomeyninin fitvaları, habelə onun və digər görkəmli hüquqşunas alimlərin müsəlman hüququna aid əsərlərində təsbit edilmiş müddəalar əsas götürülürdü. 1981-ci ildə İranda Qisas haqqında qanun qəbul edilmişdir. 199 maddədən ibarət olan bu qanunda adam öldürmə və bədən xəsarətlərinə görə cəzalar nəzərdə tutulmuşdur. Sonra Hüdud haqqında qanun qəbul olundu. Bu qanunda zina, spirtli içkilər qəbul etmə, oğurluq və quldurluq əməllərinə görə məsuliyyət müəyyən edilmişdir. Hər iki qanun şəriət normalarına əsaslanır. 1990-cı ilin əvvəllərində cinayət hüququnda aparılan islahat nəticəsində vahid məcəlləşdirilmiş akt – İran İslam Respublikasının Cinayət Məcəlləsi (islam cinayət cəzaları qanunu) qəbul

[1] Mirzəyeva S.H. İslamda uşaq hüququ. İlahiyyat elm. namizədi ... dis. Bakı, 2007, c. 62.

olunaraq qüvvəyə mindi. Lakin İran İslam Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə ayrıca qanun qəbul edildiyindən, bu növ əməllər ilə cinayət-hüquqi mübarizə məsələləri qeyd etdiyimiz Cinayət Məcəlləsi ilə deyil, həmin qanunla tənzimlənir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə qanun isə hicri qəməri tarixi ilə 1367-ci ildə (miladi tarixi ilə 1988-ci ildə) qəbul edilmişdir. 1997-ci ildə qanuna əlavə və dəyişikliklər edilmişdir. Qanunun 1-ci maddəsinə əsasən aşağıda göstərilən əməllər cinayət sayılır:

1. Narkotik maddə istehsal etmək məqsədi ilə xaşxaş, koka və çətənə əkini;
2. Müxtəlif narkotik maddələrin idxalı, ixracı, göndərilməsi və istehsalı.
3. Narkotik maddələrin saxlanılması, daşınması, alınması, yayılması, gizlədilməsi, tiranziti və satılması.
4. Narkotik maddələrin istifadəsi üçün hər bir məkanın təsisi və idarə edilməsi.
5. Qanunun istisna etdiyi hallardan başqa hər cür narkotik maddədən hər cür istifadə edilməsi;
6. Narkotik maddənı düzəltmək, almaq, satmaq, saxlamaq və istifadə etmək üçün hər cür vəsayit və cihaz.
7. Axtarışda olan və yaxalanmış narkotik maddə məhkumlarının qaçırılması və gizlədilməsi.
8. Cinayətin səbəb və əlamətlərini gizlətmək, yaxud məhv etmək.
9. Narkotik maddənin istifadə cihazlarının, yaxud özünün hər hansı bir məkana başqasını günahkar göstərmək məqsədi ilə yerləşdirilməsi.

İran İslam Respublikasında narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə məqsədi ilə Prezidentin rəhbərliyi altında qərargah fəaliyyət göstərir. Qərargahın tərkibinə aşağıdakı vəzifəli şəxslər daxil olur:

1. Prezident;
2. Baş prokuror;
3. İnformasiya naziri;
4. Səhiyyə, dərman və tibbi təlimlər naziri;
5. Təhsil naziri;
6. Tele-radio təşkilatının rəisi
7. Polis qüvvələrinin baş komandanı;
8. Tehranın İslami inqilab məhkəməsinin məsulu;
9. Zindanlar təşkilatı və təmin-tərbiyə məsulu;
10. Dirənişçi bəsic qüvvələri baş komandanı;

11. Mədəniyət naziri

Prezident qərargahın iclaslarını idarə etmək üçün bir nəfər nümayəndə seçə bilər.

«Narkotik maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə haqqında» qanunun 6-cı maddəsinə əsasən prokuror və ya onun müavini bu maddələrin istifadəsi üçün təsis olunmuş məkanların bağlatdırmasını təmin etməlidir. İİR-nın Məsləhət Şurasının 31.07.2010-cü il qərarı ilə bu qanuna dəyişikliklər edilmişdir. Qanunun 18-ci maddəsində cinayətin iştirakçılıqla törədilməsinə görə məsuliyyət nəzərdə tutulmuşdur. Belə ki, narkotik cinayətlərin tərədilməsi məqsədi ilə hər hansı şəxsi işə götürmüş və ya onun fəaliyyətini təşkilatlandırmış, belə şəxslərə rəhbərlik etmiş, maddi yardım etmiş və ya bu işə sərmayə yatırmış şəxslər, həmin cinayətlərə görə ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduğu halda, edam və bütün əmlakının müsadirə edilməsi, digər hallarda isə ən ağır cəzaya məhkum edilirlər. Bandit və ya cinayətkar şəbəkənin başçısı edam cəzasına məruz qalır. 18 yaşı tamam olmamış uşaqları və yeniyetmələri və ağıl çatışmazlığı olan şəxsləri narkotik maddələr qəbul etməyə və ya bununla bağlı cinayətlər törətməyə məcbur edən şəxs, həmçinin başqa şəxsləri narkotik və psixotrop maddə qəbul etməyə məcbur edən şəxs və ya həmin maddələri hər hansı bir vasitə ilə başqasının vücuduna daxil edən şəxs qanunda nəzərdə tutulan maksimum cəzanın 1.5-i səviyyəsində cəzalandırılır. Ömürlük azadlıqdan məhrum edilmə cəzası isə edam və bütün əmlakının müsadirə edilməsi cəzası ilə dəyişdirilir.

İran İslam Respublikasında psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə məsələləri əsasən hicri-qəməri tarixi ilə 1354-cü ildə (miladi tarixi ilə 1975-ci il) qəbul edilmiş «Ruhi təsir edən maddələr haqqında» qanun ilə tənzimlənir. Qanunun 1-ci maddəsinə əsasən Səhiyyə nazirliyi Birləşmiş Millətlər Təşkilatının tövsiyəsinə uyğun olaraq ruhi təsir edən maddələrin 4 siyahısını müəyyən etmişdir.

Üçüncü fəslin sonuncu paraqrafı İran İslam Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən yetkinlik yaşına çatmayan şəxslərə cəza təyini məsələlərinə həsr olunmuşdur. İslam hüququnun birmənalı mövqeyinə görə uşaq hüdud və qisas cəzalarına məruz qala bilməz. Islam cinayət hüququnun təməl prinsiplərindən biri cəza ilə cinayət arasında uyğunluğun qorunması prinsipidir.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunu ilə İİR-nın cinayət qanununun müqayisəsini apardıqda sonuncuda cəzanı yüngülləşdirən halların sayının məhdud olduğunu müəyyən edirik. Bu

məsələnin tədqiq etdiyimiz mövzu üçün bilavasitə əhəmiyyəti vardır. Belə ki, Azərbaycan Respublikası CM-nin «Cəzanı yüngülləşdirən hallar» adlanan 59-cu maddəsində cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi müstəqil yüngülləşdirici əlamət kimi müəyyən olunmuşdur (59.1.2-ci maddədə). Lakin İİR-nın cinayət qanununda cəzanı yüngülləşdirən hallar siyahısına belə əlamət nəzərdə tutulmamışdır. Halbuki yetkinlik yaşına çatmayan şəxslər psixoloji cəhətdən tam formalaşmamış olur. Cinayət prosesinin mərhələləri, o cümlədən təyin edilən cəza onların psixikasında dərin izlər qoya bilər, gələcək həyatlarının və ömür yollarının formalaşmasında həlledici rol oynaya bilər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayanlar barəsində tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq olunması cəza əvəzinə tətbiq olunan təsirli vasitələrdən biridir. Bu tədbirlər yetkinlik yaşına çatmayanları məhkum etmir.

İİR-da narkotik vasitələrin və psixotorp maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar bir sıra cinayətlər (məsələn, narkotik vasitələrin və ya psixotrop maddələrin silahlı qaçaqmalçılığı və s.) ölüm cəzası ilə cəzalandırılır. İİR-da ölüm cəzasının asma, güllələnmə, daşqalaq yolu ilə icra edilməsi nəzərdə tutulmuşdur. İİR-nın Cinayət Məcələsində əl-ayağın kəsilməsi, ölüm cəzasının daşqalaq kimi məqbul sayıla bilməyən üsulla icrası nəzərdə tutulsa da, təcrübədə vəziyyət tamam başqa cürdür. Həmin cəzaların tətbiq edilə bilməsi üçün qanunda mürəkkəb, ödənilməsi çox çətin olan şərtlər müəyyən edilmişdir. Bu da göstərilən cismani cəzaların tətbiqini demək olar ki, mümkünsüz edir. Bundan başqa, humanizm nöqteyi-nəzərindən ölüm cəzası daşqalaq üsulu ilə icra edilmir. Göstərilən edam üsulu İran Ali Məhkəməsinin müraciəti əsasında İran Ali Dini Rəhbərinin razılığı ilə başqa üsullarla, məsələn, güllələnmə ilə əvəz edilir. Bundan əlavə, məhkum əfv olunmasını xahiş etdikdə, yaxud tövbə etdikdə ölüm cəzası ləğv edilə bilər.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən fərqli olaraq İİR-nın İslam Cinayət Cəzaları qanununda yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinin və cəzasının xüsusiyyətlərini təsbit edən ayrıca bölmə və ya fəsil yoxdur. Lakin qanunda eyni əməli törətmiş yetkinlik yaşına çatmayanlara yetkinlik yaşına çatmışlar ilə müqayisədə bir qayda olaraq yüngül cəzalar müəyyən edilmişdir. Beləliklə, İran İslam Respublikasının cəza sistemini müəyyən edərkən bəzən cəzanın həddən artıq sərt olduğu, bəzən isə xeyli dərəcədə yumşaq olduğunu müəyyən edirik. Bu, islamın təbiətindən irəli gəlir. İİR-da yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz

dövriyyəsində iştirak etmələrinə görə cinayət məsuliyyətinin differensiasiyası aparılmasa da, təcrübədə məhkəmələr onlara verilmiş səlahiyyətlər əsasında yetkinlik yaşına çatmayanlara yaşlı şəxslər ilə müqayisədə nisbətən yüngül cəzaların təyin edilməsinə üstünlük verirlər.

Dissertasiya işinin **nəticə** hissəsində tədqiqatın yekun elmi müddəaları, cinayət qanunvericiliyinin təkmilləşdirilməsinə yönəlmiş təkliflər ümumiləşdirilmiş şəkildə ifadə olunmuşdur.

**Dissertasiya işi üzrə müəllif tərəfindən aşağıdakı elmi işlər dərc olunmuşdur:**

1. Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizədə cinayət qanunvericiliyinin inkişafı tarixi haqqında. «Nəqliyyat hüququ». Elmi-nəzəri, təcrubi jurnal. Bakı, «Hüquqi dövlət və qanun redaksiyası» MMC» nəşriyyatı. 2011. № 2. s. 155-168.
2. Yetkinlik yaşına çatmayanı cinayətkar fəaliyyətə cəlb etmə əməlinin hüquqi təhlili haqqında (Azərbaycan Respublikası və Rusiya Federasiyası qanunvericiliklərinin müqayisəli təhlili əsasında). Ulu öndər Heydər Əliyevin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş «Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları» adlı beynəlxalq konfransın materialları. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. II hissə. Bakı, Təknur, 2011. S. 326-328.
3. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizədə cinayət-hüquqi siyasətin bəzi məsələləri. «Hüquq düşüncəsi və elm». Elmi-nəzəri jurnal. 2011. № 3. s. 33-38.
4. İran İslam Respublikasında yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştiraklarına görə cinayət məsuliyyətinin bəzi məsələləri. «Hüquq elminin müasir problemləri» - II Respublika elmi-nəzəri konfransının materialları, Bakı, «Təknur» nəşriyyatı, 2012. S. 163-165.
5. Некоторые вопросы уголовной ответственности за преступления связанные с незаконным оборотом наркотических средств и психотропных веществ в Азербайджанской Республике и Исламской Республике Иран. Вестник Института Законодательства Республики Казахстан. Научно-правовой журнал, № 1 (25), 2012. С. 100-104.
6. Azərbaycan Respublikasının narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə cinayət

qanunvericiliyinin ümumi səciyyəsi. «Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri» (elmi əsərlər məcmuəsi). 2011, № 53/54. s. 240-246.

7. İran İslam Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən yetkinlik yaşına çatmayan şəxslərə cəza təyininin bəzi məsələləri. «Nəqliyyat hüququ». Elmi-nəzəri, təcrubi jurnal. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı. 2013. № 1. S. 51-60.

8. İran İslam Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə görə cinayət məsuliyyətinin bəzi məsələləri. "Qanun" elmi hüquq jurnalı, 2015, № 04 (246). S. 77-81.

**Самад Рахбари Банаиян Аббаскулу оглы**

**Уголовная ответственность несовершеннолетних за участие в незаконном обороте наркотических средств и психотропных веществ по действующим уголовным законодательствам АР и ИРИ**

**Резюме**

Настоящая диссертация посвящена современным проблемам головной ответственности несовершеннолетних лиц за их участие в незаконном обороте наркотических средств и психотропных веществ по действующим уголовным законодательствам АР и ИРИ.

Диссертация состоит из введения, трех глав, заключения и списка литературы.

Во **введении** дана общая характеристика работы.

**Первая глава – «Об истории развития законодательства, регулирующего уголовную ответсвенность несовершеннолетних за участие в незаконном обороте наркотических средств и психотропных веществ в АР»** отражает в себе проблемы генезиса соответствующей нормативной базы.

Во **второй главе – «Вопросы уголовной ответсвенности несовершеннолетних и назначения наказания за участие в незаконном обороте наркотических средств и психотропных веществ в АР»**, изучены вопросы понятия несовершеннолетнего в уголовном праве, особенности уголовной ответсвенности и назначения наказаний несовершеннолетним за рассматриваемые преступления.

**Третья глава** – «**Вопросы уголовной ответсвенности несовершеннолетних и назначения наказания за участие в незаконном обороте наркотических средств и психотропных веществ в ИРИ**», содержить в себе анализ аналогических вопросов, но уже применительно уголовному законодательству и уголовной политике ИРИ.

В **заключении** подитожываются выводы автора и результаты исследования.

**Samad Rahbari Banaian Abbasqulu oqlu**

## Criminal liability of minors for participation in illicit trafficking in drugs and psychotropic substances by the existing criminal legislations of AR and IRI

### Summary

The present thesis is devoted to modern problems of head responsibility of minors for their participation in illicit trafficking in drugs and psychotropic substances by the existing criminal legislations of AR and IRI.

The thesis consists of introduction, three heads, the conclusion and the list of references.

In **introduction** the general characteristic of work is given.

**Chapter 1 – "About stories of development of the legislation regulating criminal responsibility of minors for participation in illicit trafficking in drugs and psychotropic substances in AR"** reflects in itself problems of genesis of the corresponding regulatory base.

**In chapter 2 – "Questions of criminal responsibility of minors and assignment of punishment for participation in illicit trafficking in drugs and psychotropic substances in AR"**, are studied questions of concept of the minor of criminal law, feature of criminal responsibility and assignment of punishment by the minor for the considered crimes.

**Chapter 3 – "Questions of criminal responsibility of minors and assignment of punishment for participation in illicit trafficking in drugs and psychotropic substances in IRI"**, be comprised the analysis of analogical questions, but already applicable to the criminal legislation and criminal policy of IRI.

In the **conclusion** conclusions of the author and results of research are resulted.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**Самад Рахбари Банаиян Аббаскулу оглы**

# Уголовная ответственность несовершеннолетних за участие в незаконном обороте наркотических средств и психотропных веществ по действующим уголовным законодательствам Азербайджанской Республики и Исламской Республики Иран

5611.01 – Уголовное право и криминология;
уголовно-исполнительное право

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание учёной степени
доктора философии по праву

**Баку – 2016**